# QAFQAZIN İLK "AĞILLI" LAYİHƏLƏRİ: İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BƏRPA VƏ QURUCULUQ İŞLƏRİ

**Günay Əliyeva**

*AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı*
*gunay.eliyeva32@gmail.com*

Hazırkı şəraitdə dünya ölkələri davamlı inkişafa nail olmağın yollarını axtararaq onu həyata keçirməyə çalışır. Azərbaycanda davamlı inkişafın tərkib hissəsi olaraq yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində ölkə Prezidenti İlham Əliyevin tərəfindən davamlı və uğurlu siyasət yürüdülür. Post-konflikt dövründə işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, bu ərazilərdə davamlı inkişafın təmin olunması üzrə metodoloji yanaşmalara və qabaqcıl beynəlxalq təcrübələrə əsasən, regionun iqtisadi potensialının reallaşdırılması üçün "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafı ilə bağlı Konsepsiya" sənədi hazırlanmışdır.

Bu sənəddə ərazilərin bərpası prosesinin diqqət mərkəzində saxlanılması prinsipləri müəyyənləşdirilmişdir. Bu prinsiplər aşağıdakılardır:

- Bərpa edilmiş ərazilərə qayıdış zamanı yüksək əhali sıxlığına nail olunması;
- İnfrastruktur təminatının həmin bölgənin fasiləsiz logistik imkanlarına uyğunlaşdırılması;
- Əhalinin repatriasiyası zamanı sosial ədalət prinsipinə riayət olunması və mülkiyyət hüquqlarının bərpası;
- İqtisadi inkişafın davamlılığının təmin olunması;
- Tələb olunan investisiyaların həcminin optimallaşdırılması;
- Dövlət xərclərinin azaldılması məqsədilə bərpa prosesinə özəl və dövlət, həmçinin yerli və xarici investisiyaların cəlb edilməsi, xüsusilə, dövlət və özəl sektor tərafdaşlığından geniş istifadə olunması;
- Ərazilərin bərpa prosesinin yeni istehsala daha çox tələb yaratması və beləliklə, ölkə iqtisadiyyatının artımının stimullaşdırılması.

Yuxarıda göstərilən prinsiplər isə öz növbəsində ərazilərin bərpası, yenidən qurulması və davamlı inkişafın təmin edilməsi ilə əlaqədar siyasi tədbirlərin, o cümlədən kompleks proqramların hazırlanaraq icra olunmasını nəzərdə tutur.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nöməli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının qarşısında duran məsələlərin icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" hazırlanmışdır.

İşğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı Strateji Fəaliyyət Planı çərçivəsində infrastrukturların yenidən qurulmasına dair layihələrin icrasına artıq başlanmışdır. Artıq 7 rayonun hamısında, eləcə də Hadrut və keçmiş Ağdərə rayonunun işğaldan azad edilmiş məntəqələrində yol və elektrik enerjisi infrastrukturunun bərpası və tikintisi geniş vüsət alır. Rayon mərkəzlərinin və kəndlərin bərpası və yenidən qurulmasına dair nəzərdə tutulan layihələrin də icrası ilə bağlı konkret tapşırıqlar verilmişdir. Bərpa proqramında işğaldan azad olunmuş bütün rayonlarda kiçik kəndlərin birləşdirilməsi, yaşayış zonalarının salınması, sosial obyektlər və xidmət sahələrinin tikintisi məsələlərinə də aydınlıq gətirilmişdir.

Bu proqram əsasında işğaldan azad olunmuş ərazilərdə "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. "Ağıllı kənd" texnologiyalarının tətbiqi, həmin ərazilərdə sosial innovasiyaların, kiçik sahibkarlığın inkişafına da şərait yaradacaq və Qarabağ regionunun həm də texnoloji innovasiya-startap mərkəzi kimi cəlbediciliyini də artıracaqdır. Qeyd edə bilərik ki, artıq Zəngilan rayonunun Üçüncü Ağalı kəndində "Ağıllı kənd" layihəsinin icrasına başlanılmışdır. "Ağıllı kənd" layihəsi, əsasən, 5 komponent üzrə aparılacaq. Bu layihə yaşayış, istehsal, sosial xidmətlər, "Ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələrini əhatə edəcəkdir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaqdır.

Bərpa proqramında iri yaşayış məntəqələrinə birləşdiriləcək kəndlərin siyahısı Strateji Fəaliyyət Planında da öz əksini tapmışdır. Beləliklə, hazırda əhalisinin sayı 75 min 714 nəfər təşkil edən Kəlbəcər rayonun bütün sakinləri 1 şəhər, 1 qəsəbə və 56 kənddə yerləşdiriləcək. Bərpa planına əsasən, Kəlbəcərdə yaşayış məntəqələrinin yenidən qurulması 4 mərhələdə həyata keçiriləcək. Birinci növbədə bərpa olunacaq ərazilərə 13 yaşayış məntəqəsi daxildir: Kəlbəcər şəhəri, İstisu qəsəbəsi, Zar, Keşdək, Qılınclı, Qamışlı, Hacıkənd, İlyaslar, Lev, Zallar, Başlıbel, Ağcakənd və Zülfüqarlı kəndləri aiddir. İkinci növbədə bərpası nə-

zərdə tutulan yaşayış məntəqələri üzrə yenidənqurma tədbirləri 3 fazaya bölünür. Birinci fazada 39, ikinci fazada 5 kəndin bərpası nəzərdə tutulur. Ağdaban kəndi və keçmiş Ağdərə rayonunun Kəlbəcərin inzibati ərazisinə daxil edilmiş 23 yaşayış məntəqəsinin bərpası və yenidən qurulması isə üçüncü fazada icra olunacaq.

Zamanla "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının bütün ölkə üzrə reallaşdırılması daha yüksək yaşam standartlarının tətbiqinə, kənd təsərrüfatında və istehsalatda yeni innovasiyalar sayəsində ciddi inkişafa, bütövlükdə isə enerji resurslarından səmərəli istifadəyə gətirib çıxara bilər. Bu məqsədlə Qarabağ bölgəsində həyata keçirilən layihələr gələcəkdə bütün ölkə üçün pilot layihə kimi baza rolunu oynaya bilər. Bu tipli layihələr bölgənin gələcək inkişafında mühüm rol oynayacaq.